GROUP AZERBAIJAN

Tövsiyə Məktubu

Bakı, Azərbaycan

Biz Səbinə Əkbər ilə artıq 10 ildən çoxdur ki, tanışıq. Səbinə xanım o zamanlar beynəlxalq tədqiqat və konsaltinq şirkətinin Azərbaycan üzrə ölkə rəhbəri vəzifəsində çalışırdı.

Biz də öz növbəmizdə bir neçə beynəlxalq layihələrdə əməkdaşlıq edirdik. İki şirkət olaraq müştəriyə 360 dərəcəlik marketinq xidmətləri təqdim etmişik. Bir tərəfdən marketinq kommunikasiyaları, digər tərəfdən isə marketinq tədqiqatı və monitorinq xidmətləri.

Səbinə xanım ilə işləmək sözün əsl mənasında xoş və ürəkaçan idi. Çünki, Səbinə xanım işinin peşəkarı və sözün əls mənasında işinin pərəstişkarıdır. Layihələrə iş kimi deyil, ürəyinin bir parçası və həyatının ayrılmaz hissəsi kimi baxır.

İş zamanı dostluq və yoldaşlıq prinsipini rəhbər tutsa da peşəkarlığından ödül vermir. Dəqiqlik və keyfiyyət onun üçün prioritet dəyərlərdir.

Buna baxmayaraq onunla işləmək zövqlüdür. Çünki, bir tərəfdən öz işinə dəqiqliklə yanaşan peşəkar olaraq əminlik hissi verir. Digər tərəfdən isə iş prosesini pozitiv emosiyalarla yaddaqalan edir.

Əminliklə onunla işləməyi nəinki tövsiyə edir, hətta məsləhət görürəm.

Hörmətlə,
Abbas Fətullayev
Leo Burnett Azərbaycan

AZƏRBAYCAN RESPUBLİKASI
"TM GROUP" MMC
MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

LEO BURNETT AZERBAIJAN
BAKIKHANOV ST. 48 C, BAKU
t: +994 12 493-31-90 | w: www.leoburnett.az